# AZƏRBAYCAN RESPUBLİKASI
# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN PEDAQOGİKASI KAFEDRASI
# (P A S P O R T )

**Bakı – 2024**

**MÜNDƏRİCAT**

**1. Ön söz, Kafedranın tarixi, Kafedraya rəhbərlik, Kafedra haqqında ümumi məlumat ..................................................................................3**

**2. Kafedranın istifadə etdiyi tədris modeli.......... ..................................................................................................................................4**

**3. Semestrlər üzrə fənlər ................................................................................................................................................................5-6**

**4. Müəllim heyətinin tərkibi və dərs yükü .......................................................................................................................................7**

**5. Kafedranın tədris fəaliyyəti haqqında məlumat...............................................................................................................................8**

**6.Tədris olunan fənlər haqqında qısa təsvirlər ..........................................................................................................................9- 16**

**7.Kafedranın tədris etdiyi əsas fənlərin proqram hazırlığı haqqında məlumat.......................................................................................+16-21**

**8.Kafedranın əməkdaşlarının elmi yaradıcılıq fəaliyyəti haqqında məlumat.......................................................................................**

**..22**

**9.”Məktəbəqədər təhsilin pedaqogikası” kafedrasının 2023-2026-cü illər üçün elmi – tədqiqat işlərinin mövzuları............................... 22-29**

**10.Kafedranın doktorantı və dissertantları...................................................................................................................................30**

**11.KAFEDRA ƏMƏKDAŞLARININ QISA TƏRCÜMEYİ – HALI.................................................................................................31-43**

**12.KAFEDRANIN İLLİK İŞ PLANI (NÜMUNƏ) .........................................................................................................................44-47**

**13.KAFEDRANIN ƏSASNAMƏSİ...........................................................................................................................................48-50**

## 1.Ön söz

Yüksək ixtisaslı müəllim, tərbiyəçi və elmi –pedqoji kadr hazırlığı ilə məşğul olan "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrası üzvlərinin qarşısında 2023/2024-cü tədris ilində bir sıra mühüm vəzifələr durur. Bunlar ilk növbədə kafedranın tədris və elmi potensialını yüksəltməklə təbiyəçi hazırlığında yüksək nailiyyətlər əldə etməyə nail olmaq; kafedranın professor – müəllim heyətinin tədris prosesinə və elmi-pedaqoji fəaliyyətə məsuliyyətli münasibətini təmin etmək; tələbələrin və magistrantların təhsil səviyyəsinin yüksəldilməsinə nail olmaqla, onların yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmalarına səy göstərmək, kafedra əməkdaşlarının elmi – pedaqoji fəaliyyətini genişləndirmək və s. ibarətdir.

**Kafedranın tarixi**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrası 1968-ci ildən fəaliyyət göstərir. Məktəbəqədər təhsil-tərbiyə müəssisələri üçün ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr hazırlığında Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının müstəsna xidməti vardır. Kafedra 1968-ci ildə dosent Ə.Qədimbəyova (müdir), dos.N.Rüstəmova, dos.B.Paşayeva, müəllim Z.Vəliyeva, S.Axundova, R.Mursaqulova, R.Şapiro, S.Ələkbərova, Z.Quliyeva, X.Məmmədovadan ibarət tərkibdə yaradılmışdır.

Ötən illər ərzində kafedraya dos.Ə.Qədimbəyova (1986-1978), dos.N.Rüstəmova (1980-1989), dos.B.Paşayeva (1990-1999), dos.R.Mursaqulova (1999 – 2012) rəhbərlik etmişlər.2013-cü ildən isə həmin kafedraya prof.M.İlyasov rəhbərlik edir.

Kafedranın inkişafında dos.Ə.Qədimbəyova, dos.N.Rüstəmova, dos.B.Paşayeva, dos.R.Mursaqulova, prof.Ş.Q.Əliyeva, prof.M.İ.İlyasov və başqalarının səmərəli xidmətləri olmuşdur.

**Kafedraya rəhbərlik**

Azərbaycan Dövlət Pedaqoji Universitet rektorunun əmri ilə pedaqogika üzrə elmlər doktoru İlyasov Müseyib İbrahim oğlu 2013-cü ildən etibarən "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının müdiri təyin edilmiş və hal – hazıra kimi kafedraya rəhbərlik edir.

**Kafedra haqqında ümumi məlumat.**

"Məktəbəqədər təhsilin pedaqogikası" kafedrası ali təhsilin bakalavriat və magistratura pilləsində məktəbəqədər təlim və tərbiyə istiqaməti üzrə əsas aparıcı ixtisas kafedrasıdır.

Kafedra, müasir iş dünyasının ehtiyacı olan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bir çox sahələri əhatə edən 30-dan çox müxtəlif fənnin tədrisini həyata keçirir.

Kafedranın tədris etdiyi fənlər, yüksək ixtisaslı mütəxəssislər tərəfindən azərbaycan və rus dillərində tədris olunur.

Tədris olunan fənlər üzrə tədrisin keyfiyyətini artırmaq, tədris prossesinin səmərəliliyini yüksəltmək, o cümlədən, tələbələrin və magistrantların müxtəlif sahələr üzrə nəzəri biliklərlə yanaşı, həm də təcrübi vərdişlərini artırmaq məqsədi ilə mütəmadi olaraq məktəbəqədər təhsilin tanınmış mütəxəssislərinin iştirakı ilə elmi seminarlar keçirilərək onlara təhsil müddətində öyrənmiş olduqları biliklərin praktik həyatda istifadəsi öyrədilir. Həmçinin tələbələrin elmi – nəzəri və praktik hazırlıqlarının keyfiyyətini artırmaq üçün kafedra üzvləri ilə elmi seminar təşkil olunur, işgüzar müzakirələr aparılır.

### Missiyamız

***Tələbələrimizə məktəbəqədər təhsil sahəsində keyfiyyətli təhsil və ən müasir elmi – praktik biliklər verərək məzunlarımızın həm ölkə daxilində həm də beynəlxalq səviyyədə olan kariyera imkanlarından faydalanmaları üçün lazımi bilik və bacarıqlar əldə etmələrini təmin etmək, rəqabətə qabil mütəxəssislər hazırlamaq və respublikamızda bu sahədə aparıcı kafedra kimi***

### Vizyonumuz

***ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının vizionu ölkə səviyyəsinə tanınan, əsas baza kimi fəaliyyət göstərən praktik həyatla müntəzəm əlaqədə olan ən çox iş və kariyera imkanları yaradan və beynəlxalq təhsil standartlarına cavab verən kafedra olmaqdır.***

## 2.KAFEDRANIN İSTİFADƏ ETDİYİ TƏDRİS MODELİ

Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının istifadə obyekti tədris modelinin əsas fəlsəfəsini ilkin bazaya (əsasa) əsaslanan "mərhələli inkişaf" prinsipi tutur. Aşağıda verilən diaqramda bu öz əksini tapır. Beləki, I kursda tələbələr əsasən ixtisasla bağlı olan ümumi fənləri, dil və kompyuter bacarıqlarını artırır, II kursda tələbələr məktəbəqədər təhsil ixtisasına giriş kimi 7 fənni öyrənir. III kursda biliklərinin möhkəmləndirilməsi və dərinləşdirilməsi üçün ixtisasa uyğun olaraq 9 fənni öyrənirlər. IV kursda ixtisaslaşma fənləri öyrənilir və bunlarla yanaşı ixtisasları üzrə tədris təcrübəsinə yiyələnirlər. Magistratura pilləsində tədris planına uyğun olaraq tədris ilinin I ilində 6 əsas və 2 seçmə fənn, II ilində isə 5 əsas fənn və 2 seçmə fənn tədris olunur. Bununla yanaşı magistrantlar II tədris ilində elmi – pedaqoji və elmi – tədqiqat təcrübəsində olur, nəzəri biliklərini praktika ilə əlaqələndirir və dərinləşdirirlər.

**Birinci kurs :**

**İxtisas: Məktəbəqədər təhsil Yaz semestri üzrə** - Pedaqogika

**İxtisas: Təhsildə sosial-psixoloji xidmət Yaz semestri üzrə**- Pedaqogika-1.

**İkinci kurs:**

**İxtisas: Məktəbəqədər təhsil Payız semestri üzrə** - Məktəbəqədər pedaqogika, Məktəbəqədər təhsilin inkişaf tarixi, **Seçmə fənlər:** Tərbiyəçi müəllimin pedaqoji ustalığı, Məktəbəqədər yaşlı uşaqlarda humanizm tərbiyəsi.

**İxtisas: Məktəbəqədər təhsil Yaz semestri üzrə** -Sosial pedaqogika, Məktəbəqədər təhsildə pedaqoji texnologiyalar və innovasiyalar, **Seçmə fənn:**Məktəbəqədər təhsil müəssisələrində fəaliyyətin planlaşdırılması

**İxtisas: Təhsildə sosial-psixoloji xidmət Yaz semestri üzrə**- Sosial pedaqogika

**İxtisas: Təhsildə sosial-psixoloji xidmət Payız semestri üzrə**- Pedaqogika-2

**Üçüncü kurs:**

**İxtisas: Məktəbəqədər təhsil Payız semestri üzrə -** Məktəb təliminə hazırlığın əsasları, **Seçmə fənlər:** Tərbiyəçi işinin nəzəri və tədbiqi xüsusiyyətləri, Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühitin təşkili, Məktəbəqədər təhsil proqramları.

**İxtisas: Məktəbəqədər təhsil Yaz semestri üzrə -** Ətraf aləmlə tanışlığın metodikası, Məktəbəqədər təhsil müəssisələrində əmək və onun tədrisi metodikası, **Seçmə fənlər:** Uşaq oyunlarının təşkili metodikası, Məşğələlərin təşkili və qrupların idarə olunması, Məktəbəqədər yaşlı uşaqların estetik-yaradıcı inkişafı

**Dördüncü kurs:**

**İxtisas: Məktəbəqədər təhsil Payız semestri üzrə** -Məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı metodikası, Məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət, Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi və ona rəhbərlik, **Seçmə fənnlər:**Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı, Məktəbəqədər təhsildə əqli tərbiyə və əqli inkişaf məsələləri

**İxtisas: Məktəbəqədər təhsil Yaz semestri üzrə - 4 aylıq Pedaqoji təcrübə.**

**Magistratura səviyyəsi I il :**

**Payız semestri üzrə -** Pedaqoji peşəkarlıq və səriştəlilik. **Seçmə fənlər:** Məktəbəqədər təhsildə innovasiyalar, Müasir pedaqoji texnologiyalar və idrakın inkişafı.

**Yaz semestri üzrə -** Məktəbəqədər pedaqogikanın müasir problemləri, AMMEF (Elmi tədqiqat işlərinin metod və metodologiyası), Uşaqların məktəbə hazırlanmasının müasir problemləri, Sosial pedaqogikanın aktual problemləri, Valiologiyanın aktual problemləri.

**Magistratura səviyyəsi II il :**

**Payız semestri üzrə -** Məktəbəqədər pedaqogikanın tarixi və metodologiyası, Məktəbəqədər yaşlı uşaqların təlim - tərbiyə işinin metodikası, Nitq inkişafı və onun tədrisinin aktual məsələləri, Məktəbəqədər təhsildə uşaqların öyrənmə-idrak fəaliyyətinin təşkili. **Seçmə fənlər:** Məktəbəqədər təhsildə milli-mənəvi dəyərlər və innovasiya, Ekoloji dayanıqlıq və uşaq şəxsiyyətinin inkişafı.

**Yaz semestri üzrə -** Elmi tədqiqat və elmi-pedaqoji təcrübələr.

**4.Müəllim heyətinin tərkibi və ümumi dərs yükü.**

**Ştat cədvəli (Proffessor-müəllim heyətinin tərkibi)**

- Ümumi müəllim sayı–32 nəfər
- Tam ştat - 28 nəfər
  Y/ştat - 4 nəfər
- Saat hesabı - 237
- Pedaqogika üzrə elmlər doktoru, prof - 2 nəfər
  Pedaqogika üzrə elmlər doktoru, dosent - 1 nəfər
  Pedaqogika üzrə fəlsəfə doktoru , dosent -5 nəfər
  Pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim - 6 nəfər
  Baş müəllim -1 nəfər
  Müəllim - 15 nəfər tam ştat , 2 nəfər 0,5 ştat

**Kafedranın ümumi dərs yükü**

- Bakalavr əyani -
  **Cəmi: 13829 saat**
- Magistr əyani - **Cəmi:2082saat**
- **Ümumi yükün cəmi : 15911 saat**

## 5. Kafedranın tədris fəaliyyəti haqqında məlumat



## 6.Tədris olunan fənlər barəsində qısa təsvir

### A.Bakalavriat səviyyəsi üzrə: İxtisas: Məktəbəqədər təhsil

1. **Pedaqogika.** Müəllimin peşə hazırlığında əsas istiqamətverici yeri tutan pedaqogika fənni də bu yönümdə diqqət mərkəzində durur. Pedaqogika əsasən 4 bölməni əhatə edir:
I bölmə "Pedaqogikanın əsasları", II bölmə "Təlim və təhsil nəzəriyyəsi və texnologiyaları" (didaktika), III bölmə "Tərbiyə nəzəriyyəsi və texnologiyaları", IV bölmə "Təhsilin idarə edilməsi və ona rəhbərlik" (Məktəbşünaslıq adlanır).
Pedaqogika fənni pedaqogikanın bir elm kimi yeni cəmiyyət qurucusunda və insan şəxsiyyətinin formalaşmasında xüsusi əhəmiyyəti və rolunu, pedaqogikanın metodoloji əsaslarının nədən ibarət olmasını, şəxsiyyətin inkişafının qanunauyğun-luqlarını və metodlarını, pedaqogikanın elmi – nəzəri problemlərini, pedaqogikanın müasir problemlərini, pedaqoji prosesin qanunauyğunluqlarını, təlim və tərbiyənin prinsiplərini, metodlarını, formalarını, həyata keçirilmə texnologiyalarını, məktəbə rəhbərlik və məktəbin idarə edilməsinin nəzəri əsaslarını və s. əhəmiyyətli olduğunu göstərir.

2. **Məktəbəqədər pedaqogika**. Məktəbəqədər pedaqogika fənni gələcək tərbiyəçilərin peşə hazırlığına yiyələnməsində böyük əhəmiyyət kəsb edir. Məktəbəqədər pedaqogika təhsil müəssisələrində təlim, tərbiyə və təhsilin öyrənilməsi haqqında elm olmaqla uşaqların tərbiyəsi və təlimində fəal təlim metodlarından və texnologiyalarından istifadə edilməsinin forma və metodlarını hazırlamaqla pedaqoji, psixoloji və metodik hazırlılğın ana xəttini təşkil edir. Məktəbəqədər pedaqogika uşaqların yaş dövründəki inkişaf, fərdi, psixoloji xüsusiyyətlərini, onların təlim-tərbiyəsi prosesinin vəzifələrini, məzmununu, texnologiyasını öyrənir. Məktəbəqədər pedaqogika Azərbaycanda cəmiyyətin sosial inkişafı, pedaqoji elmin nailiyyətləri, həyatın tələbləri ilə qanunauyğun şəkildə şərtləşir.

3. **Məktəbəqədər təhsil müəssisəərində nitq inkişafı metodikası**. Nitq inkişafı metodikası məktəbəqədər yaşlı uşaqların nitqinin uşaq bağçasında formalaşdırılmasına yönəldilmiş pedaqoji fakültənin qanunauyğunluqlarını öyrənən elmdir. Fənnin məzmunnu və vəzifələri: uşaq bağçasında nitq inkişafı metodikası bütövlükdə ana dilinin tədrisi metodikasının tərkib hissəsidir. Uşaqların nitqə praktik şəkildə yiyələnmələri, onların nitqinin inkişafı sahəsində uşaq bağçasının ən əsas vəzifəsi, savada yiyələnmək və məktəbdə müvəffəqiyyətlə oxumaq üçün zəmindir. Uşaq bağçasında nitq inkişafı və ibtidai məktəbdə Azərbaycan dili təlimi metodikası qarşısında duran vəzifələrin oxşarlığı, nitq və təfəkkür, nitq inkişafı metodikasının dil və təfəkkür haqqında təlimlə əlaqəsidir.

4. **Məktəbəqədər təhsil müəssisəərində fiziki mədəniyyət.** Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyə sisteminin əsas və vacib olan bir hissəsini təşkil edir. Fiziki tərbiyə ümumtərbiyə prosesinin çox mühüm aparıcı tərkib hissələrindən biri olmaqla, uşaqların sağlam, möhkəm böyümələrini və düzgün fiziki inkişafını təmin etməklə böyük əhəmiyyət kəsb edir. Düzgün fiziki inkişaf, sağlamlıq, möhkəmlik, qüvvətlilik, uşaqların tərbiyəsində mühüm yer tutan ən qiymətli keyfiyyətlərdəndir. Fiziki tərbiyə məhz belə keyfiyyətlərin uşaqlarda yaranmasına xidmət etdiyindən bütün tarixi

dövrlərdə onu yüksək qiymətləndirilmiş, ona ciddi fikir verilmişdir. Düzgün fiziki inkişaf zəminində sağlam, qüvvətli, əməyə və Vətənin müdafiəsinə hazır nəsil yetişdirmək fiziki tərbiyənin son nəticəsi kimi mühüm əhəmiyyət kəsb edir.

5. **Ətraf aləmlə tanışlığın metodikası.** Ətraf aləmlə tanışlığın metodikası fənni uşaqlarda ətraf aləm haqqında düzgün məlumatların formalaşmasına və onlara elmi dünyagörüşü elementlərinin aşılanmasına yönəlmişdir. Uşaqlarda ətraf aləm haqqında ilkin təsəvvürlər, təfəkkür elementləri formalaşır, ətraf aləmin hadisələri, sadə qanunları və qanunauyğunluqları arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək və əldə edilmiş bilikləri praktik fəaliyyətdə müstəqil tətbiq etmək bacarığını yaradır. "Ətraf aləmlə tanışlığı metodikası" fənninin tədris edilməsində əsas məqsəd gələcək kadrların məktəbəqədər yaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların hərtərəfli inkişaf və tərbiyəsini düzgün təşkil etməkdir. Bu fənnin tədrisində fənn kurikulumunun tələblər baxımından yanaşılması nəzərə alınmışdır.

6. **Məktəb təliminə hazırlığın əsasları.** Məktəb təliminə hazırlığın vəzifəsi uşaqlarda oxumaq həvəsinin, onun məktəbə müsbət emosional münasibətinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda şəxsi sosial xüsusiyyətlərin formalaşdırılmasıdır. Uşağın məktəbə hazırlanması özündəki iki vəzifəni birləşdirir: uşağın hərtərəfli (fiziki, əqli, psixoloji, mənəvi, estetik), ümumi inkişafını və məktəbdə öyrənəcəyi fənlərin mənimsənilməsinə xüsusi hazırlığı. Məktəb təliminə hazırlığın əsas məqsədi beşyaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbə hazırlıq mərhələsində inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etməkdir və bunu da tələbələrə çatdırmaqdır.

7. **Sosial pedaqogika**. Sosial pedaqogika cəmiyyətin demokratik və humanist xarakteri, hüququn aliliyi, ədalət prinsipləri, cəmiyyətdə bərqərar olan mütərəqqi milli – mənəvi dəyərlər gənc nəslin inkişafı və şəxsiyyəti kimi formalaşması üçün böyük əhəmiyyətə malikdir. Tərbiyənin başlıca məqsədlərindən biri insanın cəmiyyət həyatına hazırlanması, cəmiyyətdə dolğun fəaliyyət göstərməsi və özünü reallaşdıra bilməsidir. Sosial pedaqogika pedaqogikanı nisbətən müstəqil sahəsi kimi son zamanlar formalaşsa da, sosial – pedaqoji ideyaların tarixi qədimdir. Pedaqoji fikir tarixində bu həmişə özünəməxsus yer tutmuşdur. Məktəbəqədər təhsil müəssisələrində və məktəbdə sosial pedaqogikanın funksiyaları geniş və önəmlidir.

8. **Məktəbəqədər təhsildə pedaqoji texnologiyalar və innovasiyalar.** Bu baxımdan məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi uşaqların intellektual, fiziki və psixoloji inkişafının təmin edilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Bununla yanaşı, məktəbəqədər yaş dövründə uşaqların sadə əmək bacarıqlarına yiyələnməsi, istedad və qabiliyyətlərinin aşkar edilməsi, həyatı qabiliyyətin formalaşması mühüm əhəmiyyət kəsb edir. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi uşaqlarda erkən yaşlardan zəhmət çəkmək adətinin və bacarığının,əməyə məhəbbət və zəhmətkeş adamlara hörmətin tərbiyə edilməsini nəzərdə tutur. Məktəbəqədər yaşda uşaq ətrafdakı bütün şeylərə canlı maraqla yanaşır və fəal hərəkət etməyə səy edir. Düzgün aparılan əmək tərbiyəsi prosesində uşaq fəaliyyət göstərərək,onu əhatə edən şeylər haqqında ilk təsəvvürlər əldə edir,onda əməyə məhəbbət,ona şən və yaradıcı münasibət formalaşır, uşaqlarda yoldaşları ilə kollektivdə işləmək vərdişi və bacarığı tərbiyə edilir.

9. **Məktəbəqədər təhsilin inkişaf tarixi.** Məktəbəqədər pedaqogika tarixi – ayrı-ayrı ictimai dövrlərdə mövcud olan tərbiyəni öyrənən elmdir. Tələbələri ümumdünya pedaqogikanın mənbələrinə istinadən ayrı-ayrı ictimai dövrlərdə mövcud olan müxtəlif xalqların tarixi tərbiyə təcrübəsi ilə tanış etmək, pedaqogikanın tarixi inkişaf yolu haqqında fikir formalaşdırmaq. Fənnin təlim nəticələri: Pedaqogika tarixinin məzmunu, əhəmiyyəti, vəzifələri və mənbələri haqqında təsəvvürlərin formalaşdırılmasıdır.

10. **Məktəbəqədər təhsil müəssisəərində əmək və onun tədrisi metodikası.** "Məktəbəqədər təhsil müəssisələrində əmək və onun tədrisi metodikası" fənninin əsas məqsədi yeni sosial iqtisadi şəraitdə tələbələrin müstəqil həyata, kütləvi və perspektivli peşələrə hazırlanmalarını, ümuməmək bacarıq və vərdişlərinə yiyələnmələrini, yaradıcı düşüncə və aktiv fəaliyyət əsasında müxtəlif şəraitlərə asanlıqla uyğunlaşmalarını təmin etməkdən ibarətdir. Bu fənn əməyin təşkili və onun tədrisinin məzmunu, metod və vasitələrini izah edir,əməyin növləri ilə bağlı vərdişlərə yiyələnmə metodikasını əhatə edir. Əmək cəmiyyətin maddi və mənəvivarlığının əsasını təşkil edir. Əmək insan tərbiyəsinin əsası olub, şəxsiyyətin formalaşmasında həlledici amildir. Əmək insanın məqsədyönlü, maddi (fiziki əmək) və qeyri-maddi (əqli əmək) fəaliyyəti olub onun tələbatını ödəməyə xidmət edir.

11. **Məktəbəqədər təhsil müəssisəərinin idarə edilməsi və ona rəhbərlik.** Respublikamızda gedən sosial-iqtisadi, elmi-texniki tərəqqi, hər sahədə olduğu kimi, məktəbəqədər təhsilin qarşısında da yeni tələblər qoyur. Bu isə öz növbəsində məktəbəqədər təhsil müəssisələrində idarəetmənin yeni əsasda qurulmasını, dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək zərurətini irəli sürür. Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi məsələlərinə yaxşı bələd olmadan gələcək kadr lazımi səviyyədə fəaliyyət göstərə bilməz. Bunun üçün gənc mütəxəssis məktəbəqədər müəssisələrə rəhbərlik, idarəetmənin praktik məsələlərinin həlli sahəsində də lazımi hazırlığa malik olmalıdır. Fakültə üzrə təhsil alan hər bir tələbə gələcəyin mütəxəssisi olaraq məktəbəqədər müəssisələrə rəhbərlik, idarəetmənin praktik məsələlərinin həlli sahəsində də lazımi hazırlığa malik olmalıdır.

**Seçmə fənlər:**

1. **I blok. Tərbiyəçi-müəllimin pedaqoji ustalığı.** Müasir pedaqoji təhsilin məqsədi informasiya və innovasiya cəmiyyətinin tələblərinə uyğun yeni formalı müəllim kadrları hazırlamaqdır. Bu günki gənclik özünün milli varlığını saxlamaqla yanaşı həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə, ümumibəşəri dəyərlərə malik olmalıdır. Müəllim və tərbiyəçinin pedaqoji ustalığı onu həm şəxsiyyət, həm də əsil müəllim kimi xarakterizə edən başlıca keyfiyyətlərdəndi. Pedaqoji ustalıq pedaqoji fəaliyyət prosesində yaranır və formalaşır. Lakin onun nəzəri və praktiki hazırlığının ilk mərhələsi məhz pedaqoji təhsil prosesində keçir.

2. **II blok. Uşaq oyunlarının təşkili metodikası.** Uşağın hərtərəfli yetişməsində oyunun böyük əhəmiyyəti vardır. Oyun uşağın fəaliyyətinin formalaşması, həyatı öyrənməsi üçün geniş vasitədir. Uşaq oynayarkən əşyanın rəngini, xassələrini, məkan münasibətlərini öyrənir, bitkilər və heyvanlar haqqında müəyyən təsəvvürlər əldə edirlər. Məktəbəqədər dövrdə oyun tərbiyənin başlıca vasitəsidir. Birinci növbədə bu uşaqların əqli tərbiyəsini inkişaf etdirir, ətraf aləm haqqında təsəvvür və anlayışları inkişaf edir, təkmilləşir, dürüstləşir və bunların əsasında əqli qabiliyyətləri formalaşır.

3. **III blok. Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı.** ”Məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı” fənnində tələbələrə sosial- emosional inkişaf pedaqoji bir problem kimi açıqlanır və əsaslandırılır, sonra sosial və emosional inkişaf anlayışlarının mahiyyəti, uşaq bağçalarının sosial-emosional inkişafının məzmunu, məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşmasında sosial-emosional inkişafın rolu, sosial-emosional inkişafın uşaqlarda müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılmasında rolu kimi vacib məsələlərə toxunulur.Həm sosial, həm də emosional inkişaf ifadəsi birgə daha geniş anlam kəsb edir. Belə ki, sosial inkişaf uşağın yaxınları, başqa uşaq və böyüklərlə ünsiyyət yaratmaq, əməkdaşlıq etmək, birgə fəaliyyət göstərmək bacarığı, sosial normaları mənimsəməsidir. Emosional inkişaf dedikdə isə uşağın başqalarının hislərini başa düşməsi, öz hislərini düzgün ifadə etməsi və hislərini tənzimləməsi anlaşılır.

4. **IV blok. Məktəbəqədər təhsil müəssisələrində ailələrlə işin təşkili.** Ailə sağlam cəmiyyət və güclü dövlətin təməlidir. Uşaqların tərbiyəsində mühüm yerlərdən birini də məktəbəqədər təhsil müəssisələrinin ailə ilə qarşılıqlı əlaqəsi tutur. Məktəbəqədər təhsil sahəsində praktik mütəxəssis hazırlanmasında təhsilin bakalavr səviyyəsində tədris edilən “Ailələrlə işin həyata keçirilməsi” fənninin təlim nəticəsi olaraq “İnkişafı dəstəkləmək üçün ailələrlə əməkdaşlıq qurmaq” proqramı çərçivəsində ailələrlə işin və əməkdsaşlığın xüsusiyyətləri ətraflı verilmiş, ailənin funksiyaları, tipləri və quruluşu göstərilmişdir. Fənnin məzmununda ailələrlə qarşılıqlı fəaliyyətin təşkili, ailələrlə qarşılıqlı əlaqə və prinsiplərin maddələri öz əksini tapıb. Bu fənnin mənimsənilməsi ailələrlə səmərəli əməkdaşlıq metodlarını müəyyən etməyə və uşağın sağlamlıq vəziyyətinə uyğun olaraq onun inkişafını dəstəkləmək üçün ailələrlə qarşılıqlı əməkdaşlıq qurmağın yollarını müəyyənləşdirməyə kömək edəcək.

5. **V Blok. Məktəbəqədər yaşlı uşaqlarda humanizm tərbiyəsi.** Tələbələr humanizm tərbiyəsinin nəzəri əsaslarını mənimsəyir və bu sahədə elmi-pedaqoji tədqiqatlar aparır. Fənnin məqsədi tələbələrdə humanizm tərbiyəsi haqqında biliklərin formalaşdırılması, humanistik biliklərin məktəbəqədər təhsilə tədbiqinin nəzəri və praktik əsaslarını mənimsəltmək, müasir pedaqogikada humanizm tərbiyəsinin rolunu aşkar etmək və qiymətləndirmək, bu sahədə müstəqil araşdırmalar apara bilmək bacarıqları formalaşdırmaqdır.

6. **VI blok. Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühitin təşkili.** Məktəbəqədər təhsil sahəsində praktik mütəxəssis hazırlanmasında təhsilin bakalavr səviyyəsində tədris edilən “Məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici mühitin təşkili” fənni mühüm yer tutur. Bu fənn bakalavrlarda məktəbəqədər yaşlı uşaqlarla aparılan tərbiyə işlərinin sistemi, təşkili və aparılması metodikası və texnologiyaları haqqında bilik, bacarıq və vərdişlərin formalaşdırılması məqsədi daşıyır. Burada bakalavrların nəzəri hazırlıqları ilə praktik bacarıq və vərdişlərinin elə bir sisteminin formalaşdırılması nəzərdə tutulur.

7. **VIII blok. Məktəbəqədər təhsil proqramı.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların təhsilinin effektivliyinə və keyfiyyətinə təsir göstərən amillər arasında mühüm rol təhsil proqramına aiddir. Proqram məktəbəqədər təhsil müəssisəindəki təhsil prosesinin məzmununu müəyyənləşdirir, uşaqların hər tərəfli inkişafı üçün zəruri və kifayət qədər yüksək təhsil səviyyəsinə zəmanət verir. Təhsil prosesinin bütövlüyü yalnız bir proqramın istifadəsi ilə deyil, hər bir uşağın inkişafının bir və ya bir neçə istiqamətini özündə cəmləşdirən ixtisaslaşmış proqramları seçmə üsulu ilə əldə edə bilər.

8. **IX blok. Məktəbəqədər təhsildə əqli tərbiyə və əqli inkişaf məsələləri.** Əqli tərbiyə uşaqların əqli inkişafına yaşlıların məqsədəyönəldilmiş təsiridir: məktəbəqədər yaşda hərtərəfli inkişaf üçün zəruri olan biliyin verilməsi və düşünmə fəaliyyətinin formalaşmasına müntəzəm təsirin olmasıdır. Əqli tərbiyə və əqli inkişaf sosial mühitin, ətraf aləmin, təlim və tərbiyənin köməyilə inkişaf edir. Onun inkişafı lazımi səviyyədə olmadıqda tədris materialı bu və ya digər fənn üzrə mövzular qavranılsa da mənimsənilmir. Əsl mahiyyəti tələbələr üçün qaranlıq qalır. Əqli tərbiyə və əqli inkişaf üzrə aparılan işlərdə bu önəmli məsələlərdəndir. Bu seçmə fənn müasir pedaqogikanın əsas tələblərindən olan nəzəriyyə ilə praktikanın möhkəm əlaqəsi əsasında tərtib edilmiş, ictimai hadisələri məhz elmi–pedaqoji aspektdən müşahidə və təhlil etməyə öyrətmək istiqamətinə yönəlmişdir.

9. **X blok. Məşğələlərin təşkili və qrupların idarə olunması.** Məktəbəqədər yaş dövründə uşağın tədris-təlim prosesində fiziki, psixoloji, sosial-emosional, intellektual inkişafı sistemli, məqsədyönlü, qarşılıqlı fəaliyyətdə həyata keçir. Bu çoxcəhətli qarşılıqlı təsir pedaqoji prosesin məzmunu ilə bağlıdır. Uşağın gələcəkdə hərtərəfli şəxsiyyət kimi formalaşması üçün tədris-təlim prosesinin demokratikləşdirilməsi və humanistləşdirilməsi əsas şərtlərdən biridir. Məşğələlərin təşkili bu prinsiplər əsasında aparılmalı və qrupların idarə olunmasında məktəbəqədər yaşlı uşaqların yaş və fərdi xüsusiyyətlər nəzərə alınmalıdır.

10. **XI blok. Məktəbəqədər yaşlı uşaqların estetik-yaradıcı inkişafı.** Estetik-yaradıcı tərbiyə uşaq tərbiyəsində ən vacib cəhətdir. O, duyğu təcrübəsinin, fərdin emosional sferasının zənginləşməsinə töhfə verir, reallığın mənəvi tərəfinin idrakına təsir göstərir, idrak fəaliyyətini artırır və hətta fiziki inkişafa təsir göstərir.Məqsədindən asılı olaraq məktəbəqədər uşaqların estetik tərbiyəsi vəzifələri iki qrupda təqdim edilə bilər.Birinci qrup tapşırıqlar uşaqların ətraf mühitə estetik münasibətinin formalaşmasına yönəldilmişdir. Aşağıdakılar nəzərdə tutulur: təbiətdə, hərəkətlərdə, sənətdə gözəlliyi görmək və hiss etmək, gözəli dərk etmək bacarığını inkişaf etdirmək; bədii zövqü, gözəli dərk etmək ehtiyacını tərbiyə etmək.İkinci qrup tapşırıqlar müxtəlif sənət növləri sahəsində bədii bacarıqların formalaşmasına yönəldilmişdir: uşaqlara rəsm çəkməyi, modelləşdirməyi, tikintini öyrətmək; mahnı oxumaq, musiqiyə keçmək; şifahi yaradıcılığın inkişafı.Məktəbəqədər uşaq müəssisəsində uşaqların estetik-yaradıcı tərbiyəsi onların fəaliyyətlərinin idarə edilməsi prinsipindən, məktəbəqədər uşaqların birləşmə üsulundan və fəaliyyət növündən asılı olaraq müxtəlif formalarda həyata keçirilir. Uşaqlar bədii fəaliyyətləri sevirlər və tez-tez özləri bədii fəaliyyətlə məşğul olurlar. Bu, müstəqil bədii fəaliyyətin böyüklərin rəhbərliyi olmadan tamamilə həyata keçirildiyini söyləmək deyil. Sadəcə olaraq, bu bələdçinin mahiyyəti dolayı, dolayı xarakter daşıyır. Tərbiyəçi-müəllim uşağın təcrübə, təəssürat toplamasına diqqət yetirir, sonra müstəqil rəsm, modelləşdirmə, musiqi fəaliyyətində əks olunacaq; vizual texnika və texnikaları öyrədir. Müstəqil bədii fəaliyyət müstəqildir, çünki o, uşaqların təşəbbüsü ilə, onların fərdi ehtiyaclarını ödəmək üçün yaranır. Tərbiyəçi-müəllimin vəzifəsi, uşağın niyyətini pozmadan, belə bir ehtiyac yaranarsa, ona kömək etməkdir. Ancaq əsas odur ki, müstəqil fəaliyyət üçün şərait yaradılsın: uşaqlar haradan alınacağını bilməlidirlər zəruri materiallar, tam olaraq mümkün olduğu yerdə, başqalarını narahat etmədən, çəkmək, qurmaq, musiqi çalmaq və.s aiddir.

11. **XII blok. Məktəbəqədər təhsil müəssisələrində fəaliyyətin planlaşdırılması.** Fəaliyyət prosesi insan üçün məqsədyönlü olub onun tələbatını ödəməyə xidmət edir. Fəaliyyət insanın dünyaya bağlılığını ilk faktorudur. Müxtəlif fəliyyət prosesi təlim hazırlığı ilə şərtlənir. Fəaliyyət hazırlığı məktəbəqədər yaş dövründən başlayaraq mərhələlərlə nəzəri və praktik biliklər əsasında formalaşır. Burada müxtəlif biliklərin inteqrasiyasının mühüm əhəmiyyəti vardır. “Məktəbəqədər təhsil müəssisələrində fəaliyyətin planlaşdırılması” fənni üzrə proqram “məktəbəqədər yaşlı uşaqların müxtəlif fəaliyyətlərin hazırlığının mahiyyəti, məqsədi və vəzifələri, məktəbəqədər təhsil kurikulumunda

uşaqların əmək, oyun və təlim fəaliyyətinin təşkili məsələləri, məzmunu, planlaşdırılması və təşkili metodikası, fəaliyyətin növləri və s.mövzular üzrə istiqamətlənmişdir. Tədris planına müvafiq olaraq hazırlanmış proqram aşağıdakıları əhatə edir: - Məktəbəqədər təhsil müəssisələrində fəaliyyətin planlaşdırılmasının növlərini; -Prespektiv planlaşdırmanı; - Cari planlaşdırmanı; -Planlaşdırmaya verilən tələb və prinsiplərini; - Yaş qrupları üzrə gün rejiminin planlaşdırılmasını; - Gəzinti və ekskursiyaların planlaşdırmasını; - Asudə vaxtın planlaşdırılmasını (valideynlərlə iş); - Oyun fəaliyyətinin planlaşdırılmasını; - Bayram və tədbirlərin planlaşdırılmasını; -Universal öyrənmə dizaynının planlaşdırılmasını; - Fərdi planların hazırlanmasını (İnklüzivlik);

**B. Magistratura səviyyəsi üzrə: İxtisas: Məktəbəqədər təlim tərbiyənin metodikası və metodologiyası**

1. **Məktəbəqədər pedaqogikanın müasir problemləri.** Dinamik bir elm olan pedaqogikanın məzmununda qısa müddətdə köklü keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verə bilər. Təhsilin aktual problemləri tədqiqi nəticəsində əldə olunmuş nəticələr, eyni zamanda mövcud proqramlarla istinad edilmiş dərslik və dərs vəsaitlərinin öyrənilməsi təşkil edilir. Məktəbəqədər təhsilin müasir problemləri bir elm kimi cəmiyyət quruculuğunda və uşaq şəxsiyyətinin formalaşmasında xüsusi əhəmiyyəti və rolunu, məktəbəqədər pedaqogikanın metodoloji əsaslarının nədən ibarət olmasını, məktəbəqədər pedaqogikanın müasir problemlərini, məktəbəqədər elmi – nəzəri problemlərini, pedaqoji prosesin qanunauyğunluqlarını, təlim və tərbiyənin prinsiplərini, metodlarını, formalarını həyata keçirməklə texnologiyanı və s. bu fəndə birləşdirməyi tövsiyyə edir.

2. **Məktəbəqədər pedaqogikanın tarixi və metodologiyası.** Məktəbəqədər təhsilin tarixi və metodologiyası fənni vasitəsilə məktəbəqədər təhsilin tarixi, pedaqogika tarixində mühüm mövqeyi və xidmətləri olan klassik pedaqoqların məktəbəqədər təhsil haqqında dəyərli fikirləri, əsərlərindəki pedaqoji ideyalar və nəzəriyyələr, görkəmli pedaqoq-alimlərin məktəbəqədər pedaqogika elmin inkişafında xidmətləri, pedaqogikanın metodologiyası, fəlsəfi əsasları, sosial mahiyyətini öyrədir.

3. **AMMEF (Elmi-tədqiqat işlərinin metod və metodologiyası).** "Elmi-tədqiqat işlərinin metod və metodologiyası" kursu magistrantların ən çox çətinlik çəkdiyi elmi-tədqiqat işlərinin elmi strukturu, tədqiqatların aparılması texnologiyası, elmi tədqiqat üçün lazım olan resurslar, dissertasiyalrın quruluşu, seçimi, dissertasiyanın obyektini, predmetinin müəyyənləşdirilməsi, fərziyyəinin qurulması, eksperimentin aparılması, nəticənin abrobasiyası və təhlili kimi məsələlərin
Magistrantlara öyrədilməsi, bu sahədə onların nəzəri və prakltik hazırlığına nail olmaq məqsədini daşıyır.

4. **Uşaqların məktəb təliminə hazırlanmasının müasir problemləri.** Məktəb təliminə hazırlıq məktəbəqədər pedaqogikanın son nəticəsidir. Uşaqların məktəb təliminə fiziki, psixi və sosial hazırlığı məhz məktəbəqədər tərbiyədən asılıdır. Hazırda uşaqların məktəb təliminə hazırlığının 6 yaşdan deyil 5 yaşdan başlanması bu fənnin tədrisində müəyyən dəyişikliklər yaratdı. Fənnin əsas məqsədi magistrantlarda uşaqların məktəb təliminə fiziki, idraki, sosial-emosional və estetik baxımından hazırlanmasını təmin edir.

5. **Məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyə işinin metodikası**. Magistratura səviyyəsi üçün nəzərdə tutulan "Məktəbəqədər yaşlı uşaqların təlim – tərbiyə işinin metodikası" fənni məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim və tərbiyə işinin sistemi, təşkili və aparılması metodikası texnologiyaları haqqında bilik, bacarıq və vərdişlərin formalaşması məqsədi daşıyır. Magistrantlar bilməlidir: məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim – tərbiyə işlərinin nəzəri əsaslarını, məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən təlim – tərbiyə işinin sistemini; məktəbəqədər yaşlı uşaqların ayrı – ayrı dövrlər üzrə yaş xüsusiyyətlərini, məktəbəqədər təhsil müəssisələrində təlim – tərbiyə işlərinin spesifik xüsusiyyətlərini, məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim – tərbiyə işlərini planlaşdırmağı; təlim – tərbiyə prosesində iş metodlarını, forma və yollarını seçə bilməlidir.

6. **Sosial pedaqogikanın aktual problemləri.** Sosial pedaqogika pedaqogikanın nisbətən müstəqil sahəsi kimi son zamanlar formalaşsa da, sosial – pedaqoji ideyaların tarixi qədimdir. Müasir dövrdə sosial funksiyanın genişlənməsi və insan amilinin xüsusi aktuallıq kəsb etdiyi bir şəraitdə sosial pedaqogikanın da əhəmiyyəti son dərəcə artır. Sosiallaşma cəmiyyətin tərbiyə imkanlarının funksiyası kimi. Sosiallaşmanın amilləri və onların tipologiyası: mikro, mezo, makro və meqa amillərinin sosail- pedaqoji məsələləri bu fəndə öz əksini tapmışdır.

7. **Valeoloji təhsilin aktual problemləri.** Valeologiyanın məqsədi sağlamlığı formalaşdıran qanunauyğunluqları öyrənmək, sağlam həyat tərzini modelləşdirməkdir. Valeoloji təhsilin aktual problemləri kursunun məqsədi magistratura pilləsində oxuyanlara sağlamlıq vəziyyəti, sağlamlıq riskinin amilləri, sağlamlığı formalaşdıran və korreksiya metodları haqqında tam təsəvvür formalaşdırmaqdır. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi fiziki tərbiyə sisteminin əsas və vacib olan bir hissəsini təşkil edir. Fiziki tərbiyə ümumtərbiyə prosesinin çox mühüm aparıcı tərkib hissə-lərindən biri olmaqla, uşaqların sağlam, möhkəm böyümələrini və düzgün fiziki inkişafını təmin etməklə, böyük əhəmiyyət kəsb edir.

8. **Nitq inkişafı tədrisi metodikasının aktual problemləri.** Məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisası üzrə magistratura tələbələri üçün nəzərdə tutulmuş "Nitq inkişafı tədrisi metodikasının aktual problemləri" fənni müasir Azərbaycan dili, uşaq psixologiyası və məktəbəqədər pedaqogika kursuna əsaslanır. Məktəbəqədər dövrdə nitq inkişafı metodikasına girişin məqsədi – nitq inkişafı metodikasının mövzusunu, məzmununu, başqa elmlərlə əlaqəsini, tədqiqat metodlarını açıqlayır. Ünsiyyət zamanı uşaq yaşlıları səslərinin çalarlarına görə fərqləndirir, onların tələffüz etdikləri sözlərin intonasiyasına görə cavab verir. Bu cür ünsiyyət prosesində uşaq yaşlıların hərəkətinə, davranışına münasibətini özünün qığıltısı, gülüşü, mimikası və jestləri ilə bildirir. Uşağın təsəvvür dairəsi genişləndikcə səslər ünsiyyət üçün kifayət etmir, o, sözlərdən, daha sonra cümlələrdən istifadə etməyə başlayır. Bədii ədəbiyyatla tanışlıq məktəbəqədər müəssisələrdə savad təlimi üzrə işin təşkili kimi bölmələrə yer verilir.

9. **Məktəbəqədər təhsildə öyrənmə - idrak fəaliyyəti.** Pedaqoji prosesin humanistləşdirilməsi, məktəbəqədər yaşlı uşaqların təlimini əhatə edir. İdrak fəaliyyəti, məlumatın alınması, yenidən işlənməsi və yeni məlumatın yaradılmasına yönəlib, onun ağılla tətbiqini tələb edir. Tərbiyəçinin tədris - idrak fəaliyyətinin təşkilinin psixoloji əsaslarını bilməsi ona, tədris prosesini peşəkarcasına təşkil etməyə imkan verir. Məktəbəqədər pedaqogika, istiqamətləndirici hərəkətlərin formalaşdırılması sensor tərbiyədə, ali – psixi proseslərin inkişaf etdirilməsi isə əqli tərbiyədə nəzərdə tutulur.

**10. Pedaqoji peşəkarlıq və səriştəlilik.** "Pedaqoji peşəkarlıq və səriştəlilik" kursu müəllim peşəkarlığı və səriştəliliyinin mahiyyəti, məzmunu, ona yiyələnmənin başlıca yolları və texnologiyaları haqqında nəzəri və praktik biliklər sistemindən ibarətdir. Bu fənn peşəkarlıq və səriştəliliyin spesifik xüsusiyyətlərini, müəllim və tərbiyəçilərin pedaqoji fəaliyyət prosesində ona malik olmalarının mahiyyətini və məzmununu öyrədir. Magistrlar bu tədris kursu vasitəsilə pedaqoji peşəkarlıq və səriştəlilik kimi vacib bacaraqlara da yiyələ biləcəklər. Pedaqoji fəaliyyətdə peşəkarlıq və səriştəlilik müəllim və tərbiyəçiləri xarakterizə edən ən başlıca keyfiyyətlərdi. Peşəkarlıq və səriştəlilik müəllimin əsil müəllim, usta və ustad müəllim olduğunun göstəriciləridi.

**Seçmə fənlər:**

**I blok. Məktəbəqədər təhsildə innovasiyalar.** "Məktəbəqədər təhsildə innovasiyalar" kursunun öyrədilməsi nəticəsində tələbələr " Təhsil və insan inkişafı", "Müasir paradiqmaları", "Məktəbəqədər təhsildə innovasiyalar", " Məktəbəqədər təhsildə pedaqoji prosesin yeniləşməsi (innovasiya)" "Məktəbəqədər təhsil sistemində islahatların mahiyyəti", "Məktəbəqədər təhsil standartlarının xüsusiyyətləri ", "Məktəbəqədər təhsildə valideynlərlə əməkdaşlığın yeni aspektləri" ilə tanış olacaqlar.

**II blok. Məktəbəqədər təhsildə milli-mənəvi dəyərlər və inteqrasiya.** Məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi uşaqların intetektual, fiziki və psixi inkişafının təmin edilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi uşaqlarda erkən yaşlardan zəhmət çəkmək adətinin və bacarığının, əməyə məhəbbət və zəhmətkeş adamlara hörmətin tərbiyə edilməsini nəzərdə tutur.

**III blok. Müasir pedaqoji texnologiyalar və idrakın inkişafı.** Pedaqoji texnologiya mahiyyət etibarilə təlim – tərbiyə prosesinin layihələşdirilməsinin sistemli metodu kimi səciyyələndirilir. Pedaqoji texnologiyanın uğurla təşkili və tətbiqi onun prinsiplərini də yaxşı bilməyi tələb edir. Təhsildə, təlim – tərbiyə prosesində texnologiyanın və texnoloji yanaşmanın tətbiqi sosial fəaliyyətdə yeni strateji inkişaf istiqaməti olub, böyük elmi və təcrübi əhəmiyyət kəsb edir. Müasir təhsil metod və texnologiyalardan istifadənin nəzəri və təcrübi məsələlərindən geniş bəhs olunmuşdur. Burada pedaqoji texnologiyalara tarixi – nəzəri baxış, təlim texnologiyaları haqqında anlayış, təlim texnologiyalarının struktur və funksional komponentləri, təlim texnologiyalarının yaradılması və tətbiqi prinsipləri, fəal və interaktiv təlim metodları, habelə tərbiyə texnologiyaları kimi aktual problemlərin təhsilinə xüsusi diqqət yetirilmişdir. Həmçinin pedaqoji texnologiyalarla təlim prosesinin idarə olunmasına təlim texnologiyalarının spesifik əhəmiyyətlərinə diqqət yetirilmişdir.

**IV blok. Ekoloji dayanıqlıq və uşaq şəxsiyyətinin inkişafı.** Magistratura pilləsi üzrə "Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi" fənni uşaqların ekoloji dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Magistranların ekoloji tərbiyə haqqında düzgün məlumatların fomalaşdırılmasına və onlara elmi dünyagörüşü elementlərinin aşılanmasına yönəltmişdir. Məktəbəqədər təlim tərbiyənin metodikası və metodologiyası ixtisası üzrə təhsil alan magistrantlar uşaqların ətraf mühitlə tanış edilməsinin aktual problemlərinin nəzəri və təcrübi əsaslarını öyrənməli idilər.

## 7.Kafedranın tədris etdiyi əsas fənlərin proqram hazırlığı haqqında məlumat.

| Kafedranın tədris etdiyi fənlərin siyahısı | Sillabus(lar) haqqında qeydlər(var, yox, kim(lər) tərəfindən hazırlanıb, təsdiqtarixivə s) | Proqram(lar) haqqında qeydlər(var, yox, kim(lər) tərəfindən hazırlanıb, qrifi və ya kafedrada təsdiqi barədə məlumat) | Fənnin tədris olunduğu ixtisaslar |
|---|---|---|---|
| Pedaqogika * | Prof.M.İ.İlyasov | ADPU Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyinin 13.02.2023-cü il tarixli 3-29/3-2-45 F saylı əmrə əsasən çap edilib. | Məktəbəqədər təhsil<br>Təhsildə sosial-psixoloji xidmət |
| Məktəbəqədər pedaqogika | Prof.M.İ.İlyasov,<br>Prof.Ş.Q.Əliyeva,<br>dos.Z.Vəliyeva,<br>dos. Ş.Baxışova,<br>dos.T.Sadıqova,<br>dos.P.Həsənova | ADPU-nun Tədris Metodika Şurasının 16 aprel 2021-ci il tarixli iclasının qərarına əsasən çap edilmişdir (pr.№3). | Məktəbəqədər təhsil |
| Məktəbəqədər təhsilin inkişaf taarixi * | Prof.Ş.Q.Əliyeva<br>Dos..S.Əliyeva | ADPU-nun Tədris Metodika Şurasının 16 aprel 2021-ci il tarixli iclasının qərarına əsasən çap edilmişdir (pr.№3). | Məktəbəqədər təhsil |
| Sosial pedaqogika * | Prof.Ş.Q.Əliyeva,<br>dos.S.Sadıqova<br>Dos..S.Əliyeva | ADPU-nun Tədris Metodika Şurasının 26 may 2023-cü il tarixli iclasının qərarına əsasən çap edilmişdir (pr.№2). | Məktəbəqədər təhsil<br>Təhsildə sosial-psixoloji xidmət |
| Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi * | Dos..S.Əliyeva<br>p.ü.f.d.b/m.N.İsmayılova<br>b/m.A.Əhmədova | ADPU-nun Elmi Şurasının 29.12.2022-ci il tarixli iclasının qərarına əsasən çap edilmişdir (pr.№3). | Məktəbəqədər təhsil |
| Məktəb təliminə hazırlığın əsasları * | dos. Ş.Baxışova | ADPU-nun Tədris Metodika Şurasının 22 may 2022-ci il tarixli iclasının qərarına əsasən çap edilmişdir (pr.№2). | Məktəbəqədər təhsil |
**Abdullayeva Səidə Ataş qızı –** 1973-cü ildə Göyçay şəhərində anadan olmuş, 1990-cı ildə 36 saylı orta məktəbi gümüş medalla bitirmiş, həmin ildə M.Ə.Rəsulzadə adına ADPU-nun Kimya fakültəsinə daxil olub, 1995-ci ildə kimyaçı müəllim ixtisası üzrə institutu bitirmişdir. 1995-ci ildə Təhsil Problemləri İnstitutunun Pedaqogika tarixi və nəzəriyyəsi üzrə dissertantı olmuş, 2007-ci ildə 13.00.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi üzrə pedaqoji elmlər namizədi alimlik dərəcəsini almışdır. 2 tezis, 20 məqalə, 1 kitabça, 1 metodik vəsait, 1 dərs vəsaiti, 3 proqram müəllifidir. 2001-ci ildən AMİ-nin İbtidai təhsil pedaqogikası və metodikası fakültəsində metodist, 2004-cü ildən Pedaqogika kafedrasında müəllim, baş müəllim, dosent əvəzi vəzifəsində işləmişdir.2016-cı ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikasında baş müəllim vəzifəsində çalışır. 20-dən artıq məqalə və tezisin müəllifidir.



**Əliyeva Vüsalə Sərdar qızı –** 1983-cü ildə Bakı şəhərində anadan olmuşdur. Xətai rayonunun 64 saylı tam orta məktəbini 2000-ci ildə bitirmişdir. Həmin ildə Azərbaycan Müəllimlər İnstitutunun İbtidai təhsil pedaqogikası və metodikası ixtisası üzrə bakalavr pilləsinə daxil olmuşdur. 2004-cü ildə bakalavr pilləsini bitirdikdən sonra Müəllimlər İnstitutunun magistr səviyyəsinə qəbul olmuş, 2006-cı ildə İbtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə magistr səviyyəsini bitirmişdir. 2006-cı ildə AMİ-nin magistratura və aspirantura şöbəsində inspektor vəzifəsində, 2007-ci ildən müəllim vəzifəsində işləmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Məktəbəqədər təhsilin pedaqogikası " kafedrasına müəllim vəzifəsində çalışır. 14 məqalə və tezisin müəllifidir.



**Məmmədova Yeganə Xanoğlan qızı –** 1981-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1987/88-ci illərdə Bakı şəhəri Yasamal rayonu 225 saylı orta məktəbi oxuyub bitirmişdir. 1998-2000-ci illərdə Bakı kommersiya texnikumunun "Mühasibat uçotu və audit" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2006-cı illərdə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialının "Məktəbəqədər təhsilin pedaqogikası və metodikası" ixtisasının bakalavr pilləsini bitirmişdir. 2009-cu ildə AMİ-nin magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir. 8 məqalə, (o cümlədən 2 xaricdə) 14 tezis, (1-i xaricdə) nəşr olunmuşdur. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Məktəbəqədər təhsilin pedaqogikası " kafedrasına müəllim vəzifəsinə çalışır.2020-ci ildə Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.



**Həsənova Zəhra Rəşid qızı -** 1973- cü il Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur. 1991-ci ildə Minkənd orta məktəbini bitirmişdir. Həmin ildə ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə qəbul olunmuş, 1996-cı ildə isə oranı bitirmişdir. 1996-cı ildə 4 saylı orta məktəbdə baş laborant, sinif müəllimi işləmişdir. 2014-cü ildə AMİ-nin ixtisasdəyişmə kursuna daxil olub, 2015-ci ildə bitirmişdir. 2015-ci ildən AMİ-nin pedaqogika kafedrasında müəllim işləmişdir. 2016-cı ildən Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinin birləşməsi ilə əlaqədar olaraq "Məktəbəqədər təhsilin pedaqogikası " kafedrasına müəllim vəzifəsinə təyin olunmuşdur. 3 məqaləsi var.



**Həmidova Xalidə Aydın qızı -**1981–ci il oktyabrın 7-da Qax rayonunda anadan olub. 1997-ci ildə Qax şəhər 2 saylı orta məktəbi bitirib. Evlidir. 2 övladı var. Azərbaycan Dövlət Pedaqoji Universiteti 2000-2004,bokalavr, "Məktəbəqədər təhsilin pedaqogikası və metodikası"; Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2004-2007, magistr, " Pedaqogika nəzəriyyəsi və tarixi", Mövzu : " Yeni təlim texnologiyalarının dərsə tətbiqi", ARTPİ 2014 -2018 doktorantı olmuşdur, dissertasiya mövzusu " Məktəbəqədər təhsil müəssisələrndə nəticəyönümlü idarəetmənin pedaqoji əsasları " ixtisasları üzrə təhsil alıb. 2003-2004 H. Əliyev adına Müasir Təhsil Kompleksində, tərbiyəçi köməkçi, 2004-2009 Müxtəlif təşkilatlarda menecer, 2009- 2010 Azərbaycan Milli Elmlər Akademiyasında elmi işçi ,2010-2013Azərbaycan Müəllimlər İnstitutunda, "Əlavə təhsilə xidmət" kabinetində metodist, 2013 ci ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Məktəbəqədər və ibtidai təhsil " jurnalında şöbə redaktoru, 2014-2016 -ci il" Magic Land ", " Zümrüd " və s. özəl körpələr evi uşaq bağçası, metodist, 2016-2017 " Nərgiz " körpələr evi -uşaq bağçası MMC-nin direktoru, 2018-ci ildən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası " kafedrasına müəllim 2018-ci ildən hal-hazıra kimi baş müəllim vəzifəsində çalışır. 2020-ci ildə Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2022-ci ildə Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.



**Əhmədova Nərgiz Edvinovna** 1983-cü ildə Sanrt –Peterburqda anadan olmuşdur. 82 saylı orta –pilot məktəbini bitirmişdir. 1999-2003-cü illərdə ABU-nun "İbtidai təhsil pedaqogikası və metodikası" ixtisası üzrə bakalavr səviyyəsini bitirmişdir. 2006-cı ildə ADPU-nun "İbtidai təhsilin pedaqogikası və metodikası" ixtisası üzrə magistratura səviyyəsini bitirmişdir. 2019-cu ildə ADPU-da "Pedaqogika, pedaqogikanın və təhsilin tarixi" ixtisası üzrə doktoranturaya qəbul olunmuşdur.2005-2009-cu illərdə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasında redaktor-dilçi və kordinator vəzifəsində çalışmışdır. 2014-cü ildən pedaqoji fəaliyyətlə məşğuldur.2017-2018-ci tədris ilində ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası " kafedrasında rus bölməsi üzrə saathesabı müəllim vəzifəsində işləmiş, 2019-cu ildən kafedrada müəllim vəzifəsində çalışır, həmçinin dissertandır. Çoxlu sayda elmi məqalə müəllifidir.



**Cəfərova Pərvin Aydın qızı** – 1975-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1991-ci ildə Bakı şəhərinin 116 saylı məktəbini bitirmişdir. Həmin ildən Bakı Məktəbəqədər pedaqoji texnikumuna daxil olmuş, 1995-ci ildə oranı bitirmişdir. 1997-ci ildə ADPU-nun "İbtidai təhsil pedaqogikası və metodikası" fakültəsinə daxil olmuş, 2002-ci ildə həmin fakültəni bitirmişdir. 2002-ci ildə magistraturaya daxil olub, 2004-cü ildə isə bitirib. 2004-cü ildən hal – hazıra qədər Pedaqogika və psixologiya fakültəsinin Məktəbəqədər pedaqogika kafedrasında baş müəllim vəzifəsində çalışır. 2015-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. P.Cəfərova onlarla elmi-tədqiqat əsərlərinin və dərs vəsaitinin müəllifidir. Hal –hazırda Məktəbəqədər təhsilin poedaqogikası kafedrasında baş müəllim vəzifəsində çalışır.



**Şxəliyeva Könül Zaur qızı** 1989 –cu il oktyabrın 4-də Bakı şəhərində anadan olub. 2007-ci ildə Göyçay şəhəri 3 saylı orta məktəbi bitirib. 2012-ci ildə Bakı Qızlar Universitetin "İbtidai təhsilin pedaqogika və metodikası" ixtisasını bakalavr pilləsi üzrə bitirib. 2015-cı ildə Azərbaycan Müəllimlər İnstitutunun "Məktəbəqədər təhsilin metodika və metodologiyası" ixtisasını magistratura pilləsi üzrə bitirib. 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Təlim-tərbiyənin nəzəriyyəsi və metodikası, Azərbaycan dilinin və onun tədrisi metodikası ixtisasına doktorantura pilləsinə qəbul olub. Hazırda ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının doktorantıdır. 20-yə yaxın məqalə və tezis müəllifidir.

Hazırda ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının müəllimi vəzifəsində fəaliyyət göstərir.



**Orucəliyeva Şəkər Şahlar qızı -** Orucəliyeva Şəkər Şahlar qızı 1991-ci ildə Sumqayıtda anadan olub.1998-2009-cu illərdə elə Sumqayıtda orta məktəbi bitirib.2009-cu ildə Azərbaycan Müəllimlər İnstitunun “İbtidai təhsilin metodikası və pedaqogikası”fakültəsinin ibtidai sinif müəllimliyi ixtisasına qəbul olunmuşdur.2013-cü ildə institutu bitirib Müəllimlərin işə qəbul imtahanından keçib Şamaxı Rayon Dağ Bağırlı kənd orta məktəbində ibtidai sinif müəllimi kimi fəaliyyətə başlamışdır.
2014-cü ildə Azərbaycan Müəllimlər İnstituna Magistraturaya daxil olmuşdur.Magistraturada Məktəbəqədər təlim və tərbiyə ixtisasının Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası ixtisasaslaşması üzrə magistr elmi-ixtisas dərəcəsi almışdır.Magistr təhsilini Azərbaycan Dövlət Pedaqoji Universitetində tamamlamışdır. 2020-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında müəllimə vəzifəsində fəaliyyətə başlamışdır, 3 məqalə müəllifidir.



**Bayramova Fidan Ramis qızı -** 1990-cı il fevralın 3-də Bakı şəhərində anadan olub. 2007-ci ildə Bakı şəhəri 291 saylı Araz Ekologiya liseyini bitirib. 2007-2011-ci illərdə ADPU-nun “Məktəbəqədər təhsilin pedaqogikası və metodikası” fakultəsində təhsil almışdır. 2013-2015-ci illərdə ADPU-nun “ Məktəbəqədər təlim və tərbiyənin metod və metodologiyası” ixtisası üzrə Magistr dərəcəsi almışdır. 2012-2016-cı illərdə ADDA-nın “Dəniz coğrafiyası və Hidrotexniki qurğular”kafedrasında lobarant vəzifəsində çalışmışdır. 2016-2018-ci illərdə “İctimai fənnlər və Dillər” kafedrasında müəllim vəzifəsində çalışmışdır.2021-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Məktəbəqədər təhsilin pedaqogikası” kafedrasında müəllim vəzifəsində çalışır. 3 məqalə və 2 tezisin müəllifidir.



**Pərvanə İldırım qızı İmanova** 1975-ci il avqustun 24-də Yevlax şəhərində anadan olub. 1992-ci ildə Ş.Qurbanov adına 8 saylı orta məktəbi bitirib. 1995-ci ildə ildə Bakı Məktəbəqədər Pedaqoji Texnikikumunu fərqlənmə diplomu ilə bitirib. 1995-ci ildə Bakı Məktəbəqədər Pedaqoji Texnikumuna laborant vəzifəsinə təyin olunub. 2001-cı ildə ADPU-nun “Pedaqogika və psixologiya” fakultəsini bitirib. 2003-cü ildə ADPU-nun “Pedaqogika nəzəriyyəsi və tarixi” fakultəsinin magistratura şöbəsinə daxil olub-2006-cı ildə fərqlənmə diplomu ilə oranı bitirmişəm. 2015/16-cı tədris ilindən ADPU-nun 5804.01. “Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi” ixtisası üzrə dissertantdır.
6 jurnal məqaləsi (o cümlədən 1-xaricdə), 2 metodik vəsait, 4 konfrans materialı (o cümlədən 1-xaricdə) və 4 fənn proqramın müəllifidir. 2022-ci ildən ADPU-nun “Məktəbəqədər təhsilin pedaqogikası” kafedrasının müəllimidir.



**Əhmədova Arzu Əli qızı** – 25.09.1985-ci ildə Şamaxı rayonunda anadan olub. 1992- ci ildə Bakı şəhəri Binəqədi rayonu 179 saylı tam orata məktəbin 1-ci sinifinə daxil olub. 2003-cü ildə orta məktəbi bitirib. 2003-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun İbtidai təhsil fakültəsinin "İbtidai təhsilin pedaqogika və metodikası" ixtisası üzrə bakalavr pilləsinə qəbul olub, 2007-ci ildə bitirib. 2014-ci ildə Bakı Qızlar Universitetinin "Pedaqogikanın nəzəriyyəsi və tarixi" ixtisasının magistratura pilləsinə daxil olub, 2016-cı ildə bitirib. 2009-cu ildə ADPU-nun İbtidai təhsil fakültəsinin "Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası" kafedrasında laborant vəzifəsində işləməyə başlayıb. 2019-cu ildən həmin fakültənin "İbtidai təhsilin pedaqogikası" kafedrasında böyük laborant vəzifəsində əmək fəaliyyətini davam etdirib. 2022-ci ilin 15 sentyabr ayından Məktəbəqədər təhsil fakültəsində "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasında müəllim kimi fəaliyyətə başlayıb. Bir neçə məqalə və tezisin müəllifidir.



**Babayeva Ayşən Ramiz qızı** 1987 –ci il 8 fevralda Qərbi Azərbaycanın Vedi rayonunda anadan olmuşdur.2007-2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası ixtisasının bakalavr səviyyəsini bitirmişdir. 2014-2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin metodikası və metodologiyası ixtisasının magistratura səviyyəsini fərqlənmə diplomu ilə bitirmişdir. 2012-2021ci ilə kimi 192 saylı körpələr evi uşa bağçasında tərbiyəçi-müəllim vəzifəsində işləyib. 2017-ci ildən ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında saat hesabı müəllim kimi fəaliyyət göstərib. 2021-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında "Pedaqoji və ictimai fənnlər" kafedrasında müəllim işləmişdir. 2019- cu ildə ADPU-nun " Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi" ixtisası üzrə doktoranturaya qəbul olunmuşdur. Bir sıra məqalə və tezislərin müəllifidir. 2022-ci ildən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının 0, 5 ştat müəllimidir.



**Novruzova Xəyalə Nüsrət qızı** 1983-cü il Şirvan şəhərində anadan olub.2000-ci ildə Şirvan şəhər 2 saylı orta məktəbi bitirib və həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogika və metodikası fakültəsinə daxil olub, 2004-cü ildə oranı bitirib. 2003-2007-ci ildə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində işləyib. 2008-2011-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogika və metodikası fakültəsinin magistr pilləsində təhsil alıb. 2022-ci ildən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının 0, 5 ştat əvəzçi müəllimidir.



**Nəsirova Qanqa Nəriman qızı** 1959-cu ildə Zaqatala şəhərində anadan olub 1976-cı ildə Zaqatala şəhərində 3N-li orta məktəbi fərqlənmə diplomu ilə başa vurub . 1977-ci ildə Bakı Dövlət Universitetinin kimya fakultəsinə daxil olub 1983-cü ildə başa vurub. 1997-ci ildən pedaqoji fəaliyyətə başlayıb. "Odlar Yurdu" Universitetinin nəzdindəki Orta İxtisas Kollecində 2004-cü ilədək saathesabı müəllim işləyib. 2010-cu ildə Azərbaycan Müəllimlər Universitetində " Əlavə təhsilə Xidmət " kabinetində metodist vəzifəsində çalışıb. 2012-2015-ci illərdə Azərbaycan Müəlimlər İnstitutunda Əyani doktoranturaya qəbul olunub. 2018-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə Pedaqogıka üzrə Fəlsəfə doktoru elmi adını alıb. BDU və UNEC "SABAH"–da müəllim işləyib. 2022-ci ildən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının p.ü.f.d. baş müəllimidir.



**Heydərova Nigar Çingiz qızı -** 01.06.1987-ci ildə Bakı şəhərində anadan olub.1993-cü ildə Nərimanov rayonu 207 saylı orta məktəbə qəbul olunub, 2004-cü ildə bitirib. 2004-cü ildə ADPU-nin "Məktəbəqədər Pedaqogika, Psixologiya və Defektalogiya" fakültəsinin "Psixologiya" ixtisasına qəbul olunub, 2008-ci ildə "Psixologiya" ixtisasına yiyələnərək bakalavr təhsilini bitirib. 2010-cu ildə ADPU-nin "Pedaqogika nəzəriyyəsi və tarixi" ixtisasının Magistraturasına qəbul olunub, 2013-cü ildə "Şagirdlərin inkişafında iqtisadi tərbiyyənin rolu" mövzusunu müdafiə edərək bitirib. 2008-ci ilin dekabr ayının birində ADPU-nin "Mühəndis pedaqoji və bədii qrafika" fakültəsinin "Elektroradiotexnika kafedrasına laborant vəzifəsinə işə qəbul olunub. 2019-cu il oktyabr ayının 14-ü tarixindən etibarən "Məktəbəqədər təhsil" fakültəsinin "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasında böyük laborant vəzifəsində çalışmağa başlayıb. Bir neçə məqalə və tezisin müəllifidir. 2023-2024-cü tədris ilində ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasına tam ştat müəllim vəzifəsinə keçirilmişdir.



Əliyeva Esmira German qızı 1978- ci ildə Bakı şəhərində anadan olub.1996-cı ildə Xəzər rayonu 26 saylı orta məktəbi bitirmişdir.1997-ci ildə Azərbaycan Dövlət Pedoqoji Unversitetinin Məktəbəqədər təhsilin pedagogikası və metodikası fakultəsinə daxil olub,2001-ci ildə oranı bitirib. 2006-2009-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogika və metodikası fakültəsinin magistr pilləsində təhsil alıb.2020-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər Təhsilin Pedaqogikası kafedrasında saathesabı müəllimdir. 2023-2024-cü tədris ilində ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasına tam ştat müəllim vəzifəsinə keçirilmişdir.



**Məmmədbəyli Nuranə Emil qızı-**1991 ci il Bakı şəhərində anadan olub. 2007 ci il Bakı şəhəri Yasamal rayonu 60 saylı orta məktəbi bitirib. 2015 ci ildə Azərbaycan Dövlət Pedaqoji universitenin Təsviri incəsənət müəllimliyi ixtisasına qəbul olub, 2019 cu ildə bitirib. 2019 cu ildə Azərbaycan Dövlət Pedaqoji universitenin Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiya ixtisaslaşması üzrə magist pilləsinə daxil olub, 2021 ci ildə fərqlənmə ilə bitirib.2023 cü ildən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogika" kafedrasına tam ştat müəllim vəzifəsinə keçirilmişdir.



**Rəhimova Qönçə Mahmud qızı** -1984-cü il avqustun 6-da Ermənistanın Noyemberyan rayonunda anadan olub. 1991-ci ildə Sumqayıt şəhəri 24 saylı orta ümumtəhsil məktəbin birincisinfinə gedib.2001-ci ildə Sumqayıt şəhəri 24 saylı orta məktəbi bitirib. 2002-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika və psixologiya fakültəsinin "Məktəbəqədər təhsilin pedaqogikası və metodikası" ixtisasına qəbul olub.2006-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika və psixologiya fakültəsini bitirib. 2007-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika və psixologiya fakültəsinə "Məktəbəqədər təhsilin pedaqogikası və metodikası" ixtisaslaşması üzrə magistratura pilləsinə daxil olmuşdur. 2009-cu ildə "Uşaq bağçasında nitqin səs mədəniyyətinin tərbiyəsi" mövzusunda "Məktəbəqədər təhsilin pedaqogikası və metodikası" ixtisası üzrə dissertasiyanı müdafiə edərək, magistr dərəcəsi almışdır.2013-2014-cü tədris ilindən Azərbaycan Dövlət Pedaqoji Universiteti Məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının doktorantıdır.2010-cu ildən 2023-cü ilin sentyabrın 15-dək ADPU-nun Məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində işləyib.2023-cü il sentyabrın 15-dən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının müəllimidir.



Qəhrəmanova Nabat Ayaz qızı 20.06.1980-cı il tarixində Bakı şəhərində anadan olmuşam. 20 nömrəli məktəbi bitirib. Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olmuşdur. 2001-ci ildə Bakalavr, 2003-cü ildə isə Magistr fərglənmə diplomları ilə Universiteti bitirmişdir. Pedaqoji karyeramı Norveçdə qurmağa başlamışdır.01.11.2009-31.07.2010 tarixində Norveçin Haugesund şəhərində Breidablikk müəllimlər mərkəzində ikidilli müəllim olaraq işləmişdir. Daha sonra 01.10.2011-31.07.2013 tarixində Stavanger şəhərində Gausel məktəbində müəllim olaraq çalışmışdır.Norveçdə 7 il yaşamış və orada yaşadığım illərdə müxtəlif təlimlərdə, kurslarda və seminarlarda iştirak etmişdir. 2014-cü ilin oktyabr ayında XXI ƏSR Beynəlxalq Təhsil və İnnovasiya mərkəzində məktəbəqədər təhsil üzrə tərbiyəçi-müəllim, 2016-ci il tarixindən etibarən məktəbəqədər təhsil üzrə metodist- müəllim olaraq işləmişdir. 2020-ci ildə Finlandiyanın Hame Universitetində Finlandiyanın Erkən Uşaq Təhsil və Pedaqoji qayğı sahəsində kurs keçmiş və sertifikat almışdır.Qatıldığım pedaqoqika üzrə başqa srtifikatlarım da vardır. 2023-cü il oktyabr ayının 1-dən ADPU-nun "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasının tam ştat müəllimidir.

Əhmədova Rəna Eldəniz qızı 1988-ci ildə Ucar rayonun da anadan olmuşam. 1994-cü ildə Bakı şəhər Nərimanov rayonu Rafiq Nəsirəddinov adına 39 saylı tam orta məktəbin 1-ci sinifinə getmişəm. 2005-ci ildə həmin məktəbi bitirmişəm. 2011-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun,ibtidai sinif müəllimliyi ixtisasına qəbul olmuşam. 2015-ci ildə İnstitutu bitirmişəm. Daha sonra 2016-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Magistraturasına qəbul olmuşam. Burada 2018-ci ildə Pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr dərəcəsi almışam. Magistraturanı bitirdikdən sonra bir müddət Zirvə tədris mərkəzində müəllim işləmişəm. 2019-cu ildən etibarən Azərbaycan Dövlət Pedaqoji Universitetində, Məktəbəqədər təhsil fakültəsində tyutor vəzifəsində işləmişəm. 2024-cü ildən isə həmin Universitetin Məktəbəqədər təhsil fakultəsində fəaliyyətimi müəllim olaraq davam elətdirirəm. Ailəliyəm iki övladım var.

Mən Bahar Qorxmazlı 22mart 1997-ci ildə Mingəçevir şəhərində anadan olmuşam.2004-cü ildə 17-N tam orta məktəbə daxil olub,2007-ci ildə ibtidai sinifi bitirmişəm.Daha sonra 2007-ci ildə imtahan verərək Təbiət-Riyaziyyat,Humanitar liseyinə 5 –ci sinifə daxil olub, 2014-cü ildə həmin liseydən məzun olmuşam.2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin ‘‘Məktəbəqədər təlim və tərbiyə‘‘ ixtisasına qəbul olub,2018-ci ildə həmin ixtisasdan məzun olmuşam.2019-2021-ci illərdə Azərbaycan Pedaqoji Universitetinin ‘‘Məktəbəqədər təlim və tərbiyənin metod və metodikası‘‘ixtisasının magistr pilləsində təhsil almışam.Universiteti bitirdikdən sonra Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən,Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin, Məktəbəqədər təhsil sahəsində həyata keçirdiyi layihələrdə təlimçi kimi fəaliyyət gösdərmişəm.Ailəliyəm bir övladım var.



**Şamxalova Laləzar Tofiq qızı -** 1953-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1972-ci ildə Bakı şəhəri Nəsimi rayonunun 240 saylı orta məktəbini bitirmişdir. 1972-ci ildən 1976-cı ilə qədər Bakı qənnadı fabrikində fəhlə işləmiş, işlədiyi müddətdə "Əmək zərbəçisi" döş nişanı ilə təltif edilmişdir. O, 1976-cı ildə V.İ.Lenin adına Pedaqoji Universitetin Rəsm və rəsmxətt kafedrasına baş laborant vəzifəsinə işə qəbul olunmuşdur. 1981-ci ildə Məktəbəqədər pedaqoji texnikumuna daxil olub, 1985-ci ildə "Məktəbəqədər müəssisələrdə tərbiyəçi" ixtisası üzrə texnikumu bitirmişdir. 1990-cı ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Məktəbəqədər pedaqogika və psixologiya" fakültəsinə daxil olmuş, 1994-cü ildə həmin fakültəni bitirərək "Məktəbəqədər pedaqogika və psixologiya, tərbiyəçi" müəllimi ixtisasını almışdır. 1997-ci ildən 2003-cü ilə kimi Bakı Qızlar Seminariyasında Pedaqogika kafedrasında müəllim vəzifəsində çalışmışdır. L.Şamxalova 1976-cı ildən hal – hazıra kimi Məktəbəqədər təhsilin pedaqogikası kafedrasında böyük laborant vəzifəsində işləyir. İşlədiyi müddət ərzində universitetin rəhbərliyi tərəfindən təşəkkür və pul mükafatı almışdır. 2 elmi məqaləsi çap edilmişdir.



**Hüseynova Ayan Əliağa qızı** 1998-ci ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə 45-saylı tam orta məktəbin bitirib və Lənkaran Dövlət Universitetinin "İbtidai sinif müəllimliyi"ixtisasına daxil olub. 2020-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Məktəbəqədər təlim və tərbiyənin metod və metodologiyası ixtisasının " magistratura pilləsinə daxil olub 2022-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. 2022-ci il Oktyabr ayının 3-ü tarixindən etibarən "Məktəbəqədər təhsil" fakültəsinin "Məktəbəqədər təhsilin pedaqogikası" kafedrasında böyük laborant vəzifəsində çalışmağa başlayıb. 4 məqalə və 1 tezisin müəllifidi

## 12.KAFEDRANIN İLLİK İŞ PLANI (NÜMUNƏ)

“Təsdiq edirəm”
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru,
______________ t.ü.e.d., prof. C.M.Cəfərov
“____” ______________ 2024-cü il

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**“Məktəbəqədər təhsilin pedaqogikası” kafedrasının**

**2024/2025-ci tədris ili üçün**

**İŞ PLANI**

| № | Məzmunu | Tarix | Məsul şəxs |
|---|---|---|---|
| 1. | 2024-2025-ci tədris ili üçün tədris yükünün müəllim heyəti arasında bölüşdürülməsi. | İyun-İyul 2024 | Prof.M.İ.İlyasov<br>b/lab.L.Şamxalova |
| 2. | 2024-2025-ci tədris ili üçün tədris yükünün müzakirəsi və təsdiqi | İyul 2024 | Prof.M.İ.İlyasov |
| 3. | Fənn sillabuslarının müzakirəsi və təsdiqi | 10 Sentyabr 2024 | Prof.M.İ.İlyasov<br>Fənn komissiyası sədrləri |
| 4. | Kafedranın 2024-2025-ci tədris ili üzrə iş planlarının müzakirəsi və təsdiqi | 10 Sentyabr 2024 | Kafedra müdiri |
| 5. | Kafedra müəllimlərinin fərdi iş planlarının müzakirəsi və təsdiqi | İyul 2024 | Kafedra müdiri |
| 6. | Yeni fənn proqramlarının hazırlanması və çapına nail olması | İl boyu | Kafedra əməkdaşları |
| 7. | Müəllimlərin dərslərinin səmərəli təşkil edilməsinə köməklik göstərilməsi və nəzarət edilməsi | İl boyu | Kafedra müdiri,<br>Fənn komissiyaları-nın rəhbərləri |

| | | | |
|---|---|---|---|
| 8. | Kafedra iclaslarının yüksək səviyyədə hazırlanması və keçirilməsi | İl boyu | Kafedra müdiri,<br>İşçi-texniki heyət |
| 9. | Kafedrada “Elmi seminar”ların məzmunlu və maraqlı keçirilməsinə nail olmaq. | Ayda 1 dəfə | Kafedra müdiri, Elmi seminarın sədri |
| 10. | Magistr dissertasiyaları mövzularının təkmilləşdirilməsi və yeniləşdirilməsi | Sentyabr 2024 | Prof.M.İ.İlyasov<br>Kafedra əməkdaşları |
| 11. | 2024-cü ildə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin müzakirəsi. | Noyabr 2024 | Prof.M.İ.İlyasov<br>B/m S.Abdullayeva |
| 12. | 2025-ci ildə elmi tədqiqat işlərinin yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi | Yanvar -oktyabr 2025 | Prof.M.İ.İlyasov<br>B/m S.Abdullayeva |
| 13. | Kafedrada yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesinə tətbiqi üzrə işlərin aparılması | Mütamadi | Kafedra müdiri<br>Kafedra əməkdaşları |
| 14. | “Elmi tədqiqat nəticələrinin tədris prosesinə tətbiqi: nəticələr, perspektivlər” mövzusunda elmi seminarın keçirilməsi | Dekabr, 2024 | B/m N.İsmayılova<br>Kafedra əməkdaşları<br>Dos.S.Abdullayeva |
| 15. | “Müəllim günü”nün qeyd edilməsi | 5 Oktyabr 2024 | Kafedra əməkdaşları |
| 16. | Müəllimlərin mühazirə və seminar məşğələlərində iştirak etmək və tövsiyələrin verilməsi | Müntəzəm | Kafedra müdiri, Fənn komissiyasının sədrləri |
| 17. | Qış imtahan sessiyasına hazırlığın müzakirəsi | Dekabr 2024 | Prof.M.İ.İlyasov |
| 18. | İmtahan suallarının və biletlərinin müzakirəsi və təsdiqi | Noyab -2024;<br>May -2025 | Prof.M.İ.İlyasov,<br>Fənn komissiyası sədrləri,<br>Müəllimlər |
| 19. | Qış imtahan sessiyasının yekunlarının müzakirəsi | Fevral 2025 | Prof.M.İ.İlyasov<br>Fənn müəllimləri |
| 20. | Kafedranın yarımillik və illik hesabatının hazırlanması | Dekabr 2024;<br>Aprel 2025 | Prof.M.İ.İlyasov<br>Müəl.P.İmanova<br>B/lab L.Şamxalova |
| 21. | Yaz imtahan sessiyasına hazırlığın müzakirəsi | May 2025 | Prof.M.İ.İlyasov |
| 22. | Görkəmli elm, mədəniyyət və incəsənət xadimləri ilə görüşlərin təşkili | Oktyabr 2024;<br>Aprel 2025 | Kafedra əməkdaşları |
| 23 | Yaz imtahan sessiyasının yekunlarının müzakirəsi | İyul 2025 | Prof.M.İ.İlyasov<br>Kafedra əməkdaşları |

| | | | |
|---|---|---|---|
| 24. | Magistr dissertasiyalarının ilkin müdafiəsinin keçirilməsi | Aprel – May, 2025 | Prof.M.İ.İlyasov<br>Magistr rərbərləri |
| 25. | “Məktəbəqədər təhsildə yeni meyillərt” mövzusunda dəyirmi masanın keçirilməsi | Dekabr 2024 | Təşkilat komitəsi<br>Kafedra əməkdaşları |
| 26. | Kafedrada mənəvi-psixoloji, inkişafetdirici və yaradıcı mühitin yaradılmasına nail olmaq | İl boyu | Prof.M.İ.İlyasov, kafedra üzvləri |
| 27. | Tədris təcrübəsinin təşkili və keçirilməsinə dair yeni metodik vəsaitin hazırlanmsı | Oktyabr 2024 | Prof.M.İ.İlyasov<br>Fənn komissiyası rəhbərləri |
| 28. | Müəllimlərin reytinq nəticələrinin müzakirəsi | May 2025 | Prof.M.İ.İlyasov |
| 29. | Müəllimlərin yarımillik və illik hesabatlarının müzakirəsi | Yanvar-İyun 2025 | Prof.M.İ.İlyasov<br>Müəl.P.İmanova |
| 30. | Kafedra iclaslarında qəbul edilən qərarların yerinə yetirilməsi vəziyyətinin müzakirəsi | Müntəzəm | Prof.M.İ.İlyasov |
| 31. | Fənn komissiyalarının işinin müzakirəsi və onların fəaliyyətinə istiqamət verilməsi | Müntəzəm | Prof.M.İ.İlyasov<br>Fənn komissiyası sədrləri |
| 32. | Tələbələrin sərbəst işlərinin təşkili və məzmunlu yerinə yetirilməsinə nəzarətin gücləndirilməsi | Müntəzəm | Prof.M.İ.İlyasov<br>Fənn komissiyaları |
| 33. | Açıq dərslərin aparılması və müzakirəsinin təşkili | Müntəzəm | Prof.M.İ.İlyasov<br>Müəl.P.İmanova |
| 34. | Mühazirə mətnlərinin, dərslik və dərs vəsaitlərinin hazırlanması | Müntəzəm | Fənn komissiyası sədrləri, müəllimlər |
| 35. | Məktəbəqədər təhsildə yeniliklərə dair diskusiyanın təşkili | Fevral 2025 | Prof.M.İ.İlyasov<br>b/m.N.İsmayılova<br>Müəllimlər |
| 36. | Elmi Şuranın, EMŞ-nin, Rektorluğun qərar və tövsiyyələri ilə bağlı məlumatların əməkdaşlara çatdırılması | Müntəzəm | Prof.M.İ.İlyasov |
| 37 | Beynəlxalq təcrübəyə uyğun olaraq kafedranın professor-müəllim heyətinin ixtisasartırma və yenidən hazırlanma prosesinə cəlb olunmasının təmin edilməsi | Müntəzəm | Prof.M.İ.İlyasov<br>Beynəlxalq əlaqələr şöbəsi ilə birlikdə |

| | | | |
|---|---|---|---|
| 38 | Müəllimlərin elmi-tədqiqat işlərinin nüfuzlu beynəlxalq jurnallarda dərc edilməsinə nail olunması | Müntəzəm | Prof.M.İ.İlyasov<br>Müəllimlər |
| 39 | Kadr potensialının inkişaf etdirilməsi və yüksək ixtisaslı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi məqsədi ilə kafedranın insan resursları (professor-müəllim heyəti) bazasının yaradılması | Müntəzəm | Kafedra müdiri;<br>Dekanlıq;<br>Universitetin İnsan Resursları şöbəsi |
| 40 | Ölkənin və xarici ölkələrin ali məktəblərinin eyni profilli kafedraları ilə əlaqələrin gücləndirilməsi | Müntəzəm | Prof.M.İ.İlyasov<br>Kafedra əməkdaşları |
| 41 | Növbəti tədris ili üçün kafedranın iş planının hazırlanması | İyun 2025 | Prof.M.İ.İlyasov |

**İş planı Məktəbəqədər təhsil fakültəsi Elmi Şurasının 11 sentyabr 2024-cü il tarixli iclasının 1 nömrəli protokolu ilə təsdiq edilmişdir.**

**Məktəbəqədər təhsil fakültəsinin dekanı: dos.N.T.Hüseynova**

**Məktəbəqədər təhsilin pedaqogikası**
**kafedrasının müdiri: prof.M.İ.İlyasov**

**13.KAFEDRANIN ƏSASNAMƏSİ**

**“Təsdiq edirəm”**
**Azərbaycan Dövlət Pedaqoji Universitetin rektoru**
**______________ t.e.d., prof. C.M.Cəfərov**
**“____” ______________ 2023-cü il**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsilin pedaqogikası kafedrası haqqında**

**ƏSASNAMƏ**

1. Məktəbəqədər təhsilin pedaqogikası *kafedrası* (bundan sonra kafedra) ADPU-nun “Məktəbəqədər təhsil” fakultəsinin əsas tədris-elm struktur vahidlərindən biri olub, məktəbəqədər təhsil və onunla əlaqəli fənlər üzrə tədris, metodiki və elmi-tədqiqat və elmi-pedaqoji kadrların hazırlanması, yenidən hazırlanması, ixtisaslarının artırılması, təhsil alanlar arasında tərbiyə işlərini həyata keçirir.
2. Kafedra Azərbaycan Respublikası Qanunvericiliyinə, Təhsil Qanununa, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunverici-lik aktlarına, “Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnamə”sinə, ADPU-nun Nizamnaməsinə, ali təhsil müəssisəsinin professor – müəllim heyətinin vəzifələrə seçilməsi və attestasiyası qaydalarına və bu Əsasnaməyə uyğun olaraq formalaşdırılır və fəaliyyət göstərir.
3. Kafedraya ümumi rəhbərlik, bir qayda olaraq elmi dərəcəsi və elmi rütbəsi olan kafedra müdiri tərəfindən həyata keçirilir. Kafedra müdirinin ayrı-ayrı sahələr üzrə müavinləri ola bilər. Kafedra müdirinin müavinləri kafedra müdirinin təqdimatı ilə rektor tərəfindən təyin edilir.
4. Kafedranın kollektiv idarəetmə orqanı onun ayda bir dəfədən gec olmayaraq çağırılan ümumi yığıncağıdır.
5. Kafedraya - kafedra müdiri, professorlar, dosentlər, məsləhətçilər, baş müəllim, müəllim və assistentlər, elmi işçilər, doktorantlar, digər kateqoriyadan olan işçilər daxildirlər.
6. Kafedranın əsas vəzifələri:

- bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin, laboratoriya işi, praktiki, seminar və digər məşğələlərin yüksək elmi-nəzəri səviyyədə aparılmasını təmin etmək;
- buraxılış işlərinə (layihələrinə), pedaqoji, istehsalat və digər təcrübələrə, tələbələrin və magistrant-ların fərdi işlərinə rəhbərlik etmək;
- cari imtahanların və aralıq yoxlamaların keçirilməsini təmin etmək;
- buraxılış - attestasiya imtahanlarının təşkilində və keçirilməsində fəal iştirak etmək;
- təhsil alanlar arasında fəal vətəndaş mövqeyinin formalaşması işində iştirak etmək;
- kafedrada tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazırlanmasını, müvafiq qaydada təsdiq edilmək üçün təqdim olunmasını təşkil etmək, digər kafedraların hazırladığı tədris proqramlarına rəy vermək;
- dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik, təlimat, göstəriş, əyani vəsait və b. hazırlanmasını təmin etmək, rektorluğun (fakültənin) göstərişi ilə dərslik, dərs vəsaiti və tədris-metodiki ədəbiyyata rəy vermək;

- elmi-tədqiqat işlərinin aparılmasını təşkil etmək, magistrantların, doktorantların və tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik etmək;
- tamamlanmış elmi-tədqiqat işlərinin müzakirəsini təşkil etmək, onların istehsalatda tətbiq edilməsi və ya nəşr edilməsi üçün rəy vermək;
- kafedra əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin fərdi planlarının tərtib olunmasını və onların icrasını təmin etmək;
- universitetin, respublikanın və xarici ölkələrin ali məktəblərinin pedaqoqlarının qabaqcıl iş təcrübəsinin öyrənilməsini və yayılmasını təşkil etmək;
- tədris prosesində müasir texniki vasitələrdən, yeni metodikalardan istifadə edilməsinə dair tədbirlər hazırlayıb həyata keçirmək;
- elmi – pedaqoji və elmi kadrların hazırlanması üçün tələbələrlə, magistrantlarla və doktorantlarla işi təşkil etmək;
- kafedra əməkdaşlarının dissertasiyasının yüksək səviyyədə hazırlanmasına kömək etmək, həmçinin rektorluğun (fakültənin) tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarını müzakirə edib rəy vermək;
- müasir texnologiyaların tətbiqi üzrə qabaqcıl təcrübənin öyrədilməsi və yeni iş metodlarının istehsalata tətbiq edilməsi məqsədi ilə müxtəlif müəssisə və təşkilatlarla əməkdaşlığı təmin etmək, qarşılıqlı faydalı əlaqələri genişləndirmək;
- məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislərin ixtisaslarının artırılmasına köməklik göstərmək, məktəbəqədər təhsil müəssisələrinə müqavilə əsasında müxtəlif xidmətləri təmin etmək, araşdırmalar aparmaq, proqramlar və təkliflər hazırlamaq;
- Universitetin bakalavr, kafedranın magistr və doktorant məzunları ilə daim əlaqələri təmin etmək;
- Məktəbəqədər təhsilin inkişafı, məktəbəqədər təhsil müəssisələrinə göstərilən xidmətlərin yüksək səviyyədə təşkil edilməsi məqsədi ilə kafedrada tədris edilən fənlər üzrə elmi biliklərin təbliğinin təşkil edilməsi.

7. Kafedra ADPU-nun Elmi Şurasının qərarı ilə, ən azı 5 professor – müəllim (o cümlədən 3 nəfər elmi dərəcəyə malik) olduqda yaradılır. Kafedranın illik tədris yükü 3,0 min saatdan çox olmalıdır.
8. Kafedra iclaslarına ADPU-nun əməkdaşları, baza müəssisəsinin üzvləri, məktəbəqədər təhsilin nümayəndələri, digər ali məktəblərin, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların işçiləri də dəvət oluna bilərlər.
9. Kafedra iclaslarında aşağıdakı məsələlər müzakirə edilir:
   - kafedra müdirliyinə seçimlə əlaqədar namizədlərin müzakirəsi;
   - kafedranın bütün fəaliyyət növləri üzrə gördüyü işlər, professor - müəllim heyətinin, doktorantların, magistr təhsili alan, staj keçən və ya fərdi planla təhsil alan tələbələrin tədris-tədqiqat planları və hesabatları;
   - kafedrada tədris olunan kurslar üzrə tədris vəsaitləri, proqramları, mühazirə və imtahan materialları;
   - müəllimlərin tədris yükünün bölünməsi və tədris yükünün yerinə yetirilməsi vəziyyəti;
   - kafedra tərəfindən təşkil edilən seminarların, konfransların, sərgilərin və s. tematikası, onların keçiril-məsinin nəticələri;
   - bakalavrların, magistrantların pedaqoji təcrübəsinin təşkili və onların keçirilməsi nəticələri;
   - buraxılış işlərinin tematikası, rəhbərlərin və rəy verənlərin təyin edilməsi, buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəyə hazırlanması vəziyyəti;
   - elmi və metodiki işlərin nəşr olunmasına dair təqdimatların verilməsi;
   - tədris olunan fənlər üzrə sərbəst proqramla təhsil alan tələbələrin işlərinin mövzularının müəyyənləş-dirilməsi;
   - sərbəst işlərin hazırlanması, təhvil verilməsi və qiymətləndirilməsi qaydalarının müəyyən edilməsi.

10. Kafedra mövcud normativ hüquqi aktlara uyğun olaraq qarşısına qoyulmuş vəzifələri yerinə yetirmək üçün öz səlahiyyətləri daxilində digər məsələləri də müzakirə edib müvafiq qərar qəbul edə bilər.
   - Kafedra iclaslarında qəbul olunan qərarlar haqqında fakültənin rəhbərliyinə, zərurət olduqda isə ADPU-nun rektorluğuna və ya Elmi Şurasına məlumat verilir.
11. Kafedra iclaslarında aşağıdakı məsələlər barədə təklif, tövsiyyə və ya təqdimatlar verilə bilər:
   - öz səlahiyyətləri daxilində kafedra müəllimlərini xarici ölkələrə, stajkeçmə və ixtisasartırma kurslarına, yaradıcılıq və tədqiqat ezamiyyətlərinə göndərmək üçün, eləcə də doktoranturaya qəbulla bağlı təqdimat vermək;
   - müəllim və elmi işçilərin kafedraya işə qəbulu haqqında işəgötürmə komissiyasına tövsiyə, onlarla müqavilə bağlanması, mövcud qanunvericiliyə uyğun olaraq onlara vəzifə maaşı və əlavələrin təyin edilməsi haqqında müraciət hazırlamaq;
   - magistraturaya, doktoranturaya qəbul və iddiaçıların kafedraya təhkim olunması ilə bağlı təkliflər vermək;
   - tələbələrin fərdi planlarına uyğun təhsilə keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;
   - əməkdaşların həvəsləndirilməsi və ya cəzalandırılması ilə bağlı əsaslandırılmış təqdimat vermək;
   - kafedranın müəllimlərinin, elmi işçilərinin və digər əməkdaşlarının vəzifədən kənarlaşdırılması haqda təqdimat vermək;
   - digər təkliflər vermək.
12. Kafedra iclaslarında qərarlar açıq və ya gizli səsvermə yolu ilə, sadə səs çoxluğu ilə qəbul edilir.
13. Kafedra müdiri:
   - kafedranın fəaliyyətinə rəhbərlik edir, onun işini planlaşdırır və təşkil edir;
   - kafedra iclaslarını çağırır, onlara sədrlik edir;
   - Elmi Şura qarşısında kafedranın fəaliyyəti barədə hesabat verir;
   - kafedranı təmsil edir;
   - kafedra müdirinin müavinləri vəzifələrinə namizədləri təklif edir;
   - kafedranın fəaliyyətinin nəticələrinə görə məsuliyyət daşıyır.
14. Kafedrada kargüzarlıq mövcud qanunvericiliyə və ADPU-da qəbul edilmiş qaydalara uyğun olaraq aparılır.
15. Əsasnaməyə əlavələr və dəyişikliklər, onun qəbul olduğu qaydada həyata keçirilir.

**Əsasnamə kafedranın "12" "sentyabr" 2022-ci il tarixli iclasında qəbul edilmişdir**
**Kafedra müdiri:_____________ prof.M.İ.İlyasov**

Azərbaycan Dövlət Pedaqoji Universitetin Elmi Metodiki Şurasının "____" "Sentyabr" 2024-cü il tarixli iclasında müzakirə edilərək bəyənilmiş, təsdiq edilməsi üçün Elmi Şuraya tövsiyə olunmuşdur.

**Tədris-Metodiki Şuranın sədri: ___________ dos. E.İ.Aslanov**